

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 AVQUST 2024-cü il BAZAR № 176 (7934) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Dostluq və perspektivli əməkdaşlıq formatı

## Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və etibarlı münasibətləri sayəsində dövlətlərarası strateji əlaqələr daha da güclənir



*Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfərində müzakirə mövzuları arasında Rusiya-Azərbaycan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin gələcək inkişafı məsələləri, həmçinin aktual beynəlxalq və regional problemlər qeyd olunur. Səfərin yekunları ilə bağlı dövlət başçılarının birgə bəyanatının qəbul edilməsi, hökumətlərarası sənədlərin imzalanması nəzərdə tutulur.*

Ölkənin təhlükəsizliyi və inkişaf göstəriciləri həm də qonşuları ilə münasibətləri müəyyən edir. Hansı ölkə ki, qonşularla əməkdaşlıq edir, həmin ölkə təhlükəsizliyi və davamlı inkişafı üçün əlavə üstünlük qazanmış olur. Azərbaycanın xarici siyasətində bu prinsip aydın ifadə olunur. Rəsmi Bakı Ermənistan istisna olmaqla, yerləşdiyi regionun bütün ölkələri ilə müxtəlif platformalarda ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinə malikdir. Prezident İlham Əliyev iyul ayının 20-də 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, Azərbaycan-Rusiya münasibətlərində həll oluna bilməyən məsələ mövcud deyil və uzun müddətdir ki, belədir. Qarşılıqlı hörmət və maraqların gözlənilməsi, uzun əsrlər boyu xalqlarımız arasında əlaqələrə əsaslanaraq bu münasibətləri formalaşdırırıq. Doğrudan da son dövrlərdə yüksək səviyyəli görüşlərin intensivliyi artıb, buna böyük ehtiyac var. Biz apreldə Moskvada, bu yaxınlarda Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində görüşmüşük.

"Həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Sevindirici haldır ki, həmçinin milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır. Beləliklə, Sizinlə bir neçə il əvvəl danışdıqlarımız artıq uğurla həyata keçirilir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 3-də Astanada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşündə bildirib. Ölkə başçısı qeyd edib ki, keçən dəfə Moskvada "Şimal-Cənub" layihəsini müzakirə etdik. O vaxtdan bəri müsbət irəliləyişlər baş verdi. Azərbaycan ərazisində dəhlizin infrastrukturunu genişləndirmək əzmindəyik.

**(davamı 2-ci səhifədə)**

# Dostluq və perspektivli əməkdaşlıq formatı

***Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və etibarlı münasibətləri sayəsində dövlətlərarası strateji əlaqələr daha da güclənir***

**(əvvəli 1-ci səhifədə)**

Ekspertlərin fikrincə, ötən il iki ölkə arasında ticarət dövriyyəsi rekord rəqəmlərə çatıb və bu tendensiya davam edir. Ərzaq və kənd təsərrüfatı xammalı, neft, metal və plastik məhsulların ticarəti də artır. Qarşılıqlı hesablaşmaların təxminən dörddəüçü ilə həyata keçirilən milli valyutalar əsasında ticarət də inkişaf edir. İkitərəfli yükdaşımalar nəzərəçarpacaq dərəcədə artıb.

2023-cü ildə iki ölkə arasında ümumi yükdaşımaların həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yükdaşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub. Eyni zamanda hazırda Azərbaycanda Rusiya kapitalı ilə 1400-dən çox müəssisənin fəaliyyət göstərməsi, ötən il Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının məbləğinin 300 milyon ABŞ dollara yaxın olması iki dövlət arasında öhdəliklərə sadiqliyin əyani təzahürüdür. Çoxşaxəli strateji tərəfdaşlıq 260-dan çox imzalanmış sənədi özündə ehtiva edən sanballı hüquqi baza ilə təmin olunub. Onların arasında 2022-ci il fevralın 22-də imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə xüsusi yer tutur. Rusiya Azərbaycanın üçüncü ən böyük, qeyri-neft ixracına görə isə birinci ticarət tərəfdaşıdır. 2023-cü ildə ticarət dövriyyəsi 17,5 faiz artaraq rekord həddə - demək olar ki, 4,4 milyard ABŞ dollarına çatıb. Həmçinin bu ilin birinci yarısında ticarət dövriyyəsində dinamik artım müşahidə olunur. Azərbaycan-Rusiya münasibətləri daha da güclənən qarşılıqlı anlaşma və dostluğa əsaslanır. Münasibətlərin fundamentini ticari-iqtisadi əməkdaşlıq təşkil edir. Azərbaycan Avrasiya İqtisadi Birliyinə daxil olmayan keçmiş SSRİ ölkələri arasında Rusiyanın əsas ticarət tərəfdaşıdır.

İnvestisiya sahəsində qarşılıqlı fəaliyyətdə müşahidə olunan müsbət artım dinamikası məmnunluqla qeyd edilir. Rusiya biznesi Azərbaycan iqtisadiyyatının bir çox sahələrində geniş təmsil olunur. Əczaçılıq və neft-kimya, qida sənayesi, şərabçılıq, mədən sənayesi, tikinti materiallarının istehsalı, avtomobil sənayesi və avadanlıqlara texniki xidmət sahələrində əməkdaşlığın uğurlu nəticələri var. Xüsusilə "Lada" və "Qazel", "KamAZ" və "Ural" avtomobilləri üçün servis dəstəyi göstərilir. Bununla yanaşı, perspektivli sahələr arasında gəmiqayırma, metallurgiya, turizm sektorlarını qeyd etmək lazımdır. Azərbaycan sahibkarları Rusiyada aqrobiznes, meşə təsərrüfatı və turizmə, o cümlədən Xəzər dənizinin iqtisadi potensialına fəal şəkildə sərmayə qoyurlar.



Beynəlxalq nəqliyyat dəhlizləri qlobal inteqrasiya şəraitində dünya iqtisadiyyatının inkişafının ən mühüm amillərindən biridir. Dəhlizlər beynəlxalq iqtisadi əlaqələrin müxtəlif xarici iştirakçıları arasında sabit nəqliyyat əlaqələrinin yaradılmasını və fəaliyyətini təmin edir.

Qlobal iqtisadi proseslərin tərkib hissəsi olan Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında rolu getdikcə artır və ölkəmiz bu istiqamətdə öz səylərini əsirgəmir. Qarşılıqlı səfər və görüşlər iki ölkə arasındakı münasibətlərin inkişafına töhfələr verir. Xüsusilə də dövlət başçılarının görüşləri ikitərəfli münasibətlərin müzakirəsi və əməkdaşlığın dərinləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Bunun bariz nümunəsi kimi aprelin 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri zamanı "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin müzakirə edilməsini xüsusi qeyd etmək lazımdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycanla Rusiyanı birləşdirən dəmiryolu xətti var, ancaq gözlənilən 15 milyon ton yük həcminin daşınması üçün mövcud infrastruktur müvafiq qaydada genişləndirilməlidir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri ilə yükdaşımaların artırılması region dövlətlərinin maraq dairəsindədir. Belə ki, Rusiya-Ukrayna müharibəsi həm Avropa İttifaqı ölkələrinin, həm də Rusiyanın ticarət əlaqələrinə ciddi təsir edib. Bu səbəbdən Azərbaycandan keçən Şimal-Cənub dəhlizi Rusiyanın, Şərq-Qərb dəhlizi (Orta dəhliz) isə Çin də daxil olmaqla, Mərkəzi Asiya ölkələrinin, həmçinin Avropa İttifaqı ölkələrinin diqqət mərkəzindədir. Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərində iştirak edən yeganə ölkədir.



Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi perspektivli layihələrdən biridir. Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasına dair saziş 2000-ci ildə Rusiya, Hindistan və İran tərəfindən imzalanıb. Daha sonra iştirakçıların sayı 14-ə çatıb. Dəhliz Hindistan, İran və Fars körfəzi ölkələrindən Rusiya ərazisi vasitəsilə Avropaya yüklərin cəlb edilməsinə imkan yaradır. Belə olan halda Süveyş kanalından keçən dəniz yolu ilə müqayisədə məsafə yarıdan çox qısalır ki, bu da nəqliyyatın vaxtını və xərclərini azaldır. Hazırda layihə ayrı-ayrı dövlətlərin bir neçə müxtəlif nəqliyyat sistemini birləşdirir. Azərbaycan öz infrastrukturunun modernizasiyası üzərində ciddi şəkildə çalışır. Bakı yaxınlığında çox böyük ticarət limanı istifadəyə verilib. Həmçinin dəmir yolları bizi qonşu ölkələrlə birləşdirir. Avtomobil yolları da yük axınının artmasına təkan verir. Ölkənin dəmiryolu infrastrukturunun bərpası və təkmilləşdirilməsinə xüsusi önəm verilir. Şimal-Cənub layihəsi çərçivəsində vahid logistik operatorun yaradılması perspektivləri Azərbaycanla Rusiya arasında yüklərin daşınmasını sürətləndirəcək və əməkdaşlığı möhkəmləndirəcək. Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb.

Dövlət suverenliyini tam bərpa etmiş Azərbaycan regionda əməkdaşlığın və davamlı inkişafın təmin olunması üçün səylərini davam etdirir. Tərəfdaş ölkələrin birgə səyləri ilə nadir əməkdaşlıq formatı yaradılıb. Həmin format bu gün xalqlarımızın rifahına, eləcə də təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir. Bu prosesdə Rusiya ilə əlaqələrin inkişaf etdirilməsi xüsusi yer tutur. Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və etibarlı münasibətləri sayəsində bu gün dövlətlərarası əlaqələr strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq fonunda daha da güclənir.

**Mustafa KAMAL,**
**"Respublika".**